**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№295/1** **20 dekabr 2017-ci il**

**Auditorlar Palatasının üzvləri arasında dempinq və haqsız rəqabətin yolverilməzliyi barədə bağlanacaq partnyorluq sazişi barədə**

Auditorlar Palatası Şurasının 2016-cı il 21 dekabr tarixli 283/5 saylı qərarı ilə təsdiq edilmiş "Dempinqə və haqsız rəqabətə qarşı mübarizəyə dair tədbirlər sisteminin işlənib hazırlanması və tətbiqi üzrə Plan proqram"ın 6-cı "Auditorlar Palatasının üzvləri arasında dempinq və haqsız rəqabətin yolverilməzliyi barədə bağlanacaq partnyorluq sazişinin layihəsinin və tətbiqi mexanizminin hazırlanması" bəndinə uyğun olaraq hazırlanmış və Palata Şurasının 2017-ci il 8 noyabr tarixli 292/3 nömrəli qərarı ilə bəyənilərək Palata üzvləri tərəfindən rəy və təkliflər bildirilməsi üçün Palatanın internet səhifəsində yerləşdirilərək müzakirəyə çıxarılmış və Palata üzvlərinə göndərilmiş layihənin Auditin hüquqi təminatı və standartlaşırma idarəsi (M.Abbasov) tərəfindən alınmış rəy və təkliflər nəzərə alınmaqla yenidən işlənərək təqdim edilmiş layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorlar Palatasının üzvləri arasında dempinq və haqsız rəqabətin yolverilməzliyi barədə partnyorluq sazişi"nin yerli auditor təşkilatları və sərbəst auditorlar tərəfindən imzalanması məqsədəmüvafiq hesab edilsin (sazişin mətni əlavə olunur).

2. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki:

- bir həftə müddətində partnyorluq sazişinin imzalanması məqsədilə sazişin və ona əlavələrin mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin;
- Auditorlar Palatasının üzvlərinin partnyorluq sazişinə qoşulmaları və bundan irəli gələn işlərin həyata keçirilməsi üzrə müvafiq təşkilati tədbirlərin reallaşdırılması təmin edilsin.

3. Sədrin müşaviri F.Qarayevə, Aparatın İT üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, üç gün (ingilis və rus dillərində bir ay) müddətində bu qərarın, "Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarının və sərbəst auditorların Bəyanatı"nın, partnyorluq sazişinin və ona əlavələrin mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**